*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 144-149* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.1.144*

# Hüseyn Cavid yaradıcılığında Naxçıvan mühitinin proyeksiyası

**Aysel Qurbanova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: ayselqurbanova@rambler.ru

**Annotasiya.** Biz bu məqalədə Hüseyn Cavidin yaradıcılığında Naxçıvan mühitinin proyeksiyasını tədqiqata cəlb etmişik. Bu zamana qədər elmi ədəbiyyatlarda Hüseyn Cavidi gah Rza Tevfiq Bölükbaşı, gah Əli bəy Hüseynzadənin ideallarının davamçısı olub, onların təsirilə əsərlər yazdığını qeyd etməklə onun bir dramaturq, şair, ictimai-siyasi xadim kimi şəxsiyyətinin və yaradıcılıq imkanlarının üzərinə kölgə salmışlar. Ancaq bu məqalədə biz Hüseyn Cavidin heç də hər hansı bir ziyalının təsirinə düşmədiyini, əksinə, onlarla ünsiyyətə yetkin bir şəxs kimi başladığını, doğulub boya-başa çatdığı Naxçıvan mühitinin onun yaradıcılığında nə qədər dərin izlər qoyduğunu nümunələr əsasında göstərməyə çalışmışıq. Biz burada Hüseyn Cavidi həm dramaturq, həm də ictimai-siyasi xadim kimi fəaliyyət göstərən zamanı yazdığı "İblis" pyesində Naxçıvanda baş verən gərgin tarixi hadisələrin əks etdirildiyini müşahidə edirik. Pyesin təhlili zamanı əsərin I Dünya müharibəsinə həsr olunduğu qeyd olunsa da, "İblis" pyesində Naxçıvanda baş verən erməni-müsəlman münaqişəsinə, erməni daşnaklarının törətdiyi qırğınlara bədii müstəvidə yanaşılmış, Papas obrazında isə tarixdə olan erməni keşiş obrazının prototipi yaradılaraq, ermənilərin mənfur niyyətləri bu obraz vasitəsilə təqdim edilmişdir. Hüseyn Cavidin yaradıcılığının azərbaycançılığı içərisinə alan türkçülük ideologiyasına xidmət etməsi, eyni zamanda Naxçıvanın qədim türk xalqlarının məskəni olması ilə də əlaqədardır. Onun yaradıcılığındakı təsəvvüf qatı da Naxçıvan və Cavidin ailə mühitindən qaynaqlanır. Cavid əfəndinin yaradıcılığını tədqiq edərkən Naxçıvan mühitini, dini inanc sistemini, coğrafiyasını, tarixini də diqqət mərkəzində saxlamaq lazımdır.
**Açar sözlər:** Hüseyn Cavid, Kazım Qarabəkir Paşa, Naxçıvan mühiti, Şeyx Məhəmməd, proyeksiya

**Məqalə tarixçəsi:** göndərilib – 13.06.2024; qəbul edilib – 22.06.2024

# Projection of the environment of Nakhchivan in the works of Huseyn Javid

**Aysel Gurbanova**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: ayselqurbanova@rambler.ru

**Abstract.** In this article, we studied the influence of the Nakhchivan environment on the works of Huseyn Javid. Until now, in the scientific literature, Huseyn Javid has often been viewed as a successor to the ideals of Rza Tevfig Bolukbashi or Ali Bey Huseynzade. It has been suggested that he wrote under their influence, which has overshadowed Huseyn Javid's individuality and creative potential as a playwright, poet, and public and political figure. However, in this article, we argue that Huseyn Javid was not significantly influenced by any particular intellectual figures. On the

contrary, we attempt to demonstrate through examples that he began to engage with them only in adulthood and that the environment of Nakhchivan, where he was born and raised, had a profound impact on his work. We see this reflected in his play “Iblis” where Javid, as both a playwright and public and political figure, depicts the tense historical events that occurred in Nakhchivan. While previous analyses of this play have suggested that its content is centered around the First World War, we argue that “Iblis” is, in fact, dedicated to the Armenian-Muslim conflict in Nakhchivan and the massacres committed by the Armenian Dashnaks. In the character of Papas, a prototype of the historical image of the Armenian priest is created, through which Javid presents the malicious intentions of the Armenians. The fact that Huseyn Javid’s work aligns with the ideology of Turkism, which includes Azerbaijanism, is also linked to Nakhchivan being the birthplace of the ancient Turkic peoples. The layer of Sufism in his work likewise originates from the Nakhchivan region and from Javid's family background. Therefore, when studying the works of Huseyn Javid, it is essential to consider the influence of Nakhchivan's environment, its system of religious beliefs, as well as its geography and history.

**Keywords:** Huseyn Javid, Kazim Garabakir Pasha, environment of Nakhchivan, Sheykh Mahammad, projection

**Article history:** received – 13.06.2024; accepted − 22.06.2024

## Giriş / *Introduction*

Azərbaycan fikir tarixində şəxsiyyəti, yaradıcılığı, ictimai-siyasi fəaliyyəti ilə əvəzolunmaz yeri olan Hüseyn Cavid qədim Naxçıvan torpağının yetirdiyi dahilərdən biridir. Hüseyn Cavidin yaradıcılığı müxtəlif aspektlərdən tədqiq olunmasına baxmayaraq, böyüyüb boya-başa çatdığı və hər zaman sıx əlaqədə olduğu Naxçıvanın onun yaradıcılığında hansı səviyyə və üsullarla proyeksiya olunması araşdırılmamışdır. Məqalə həmin problemə aydınlıq gətirmək məqsədilə yazılmışdır.

Hüseyn Cavid əsərlərini yazarkən ənənəvi Şərq və Qərb janrlarından, tənzimat və sərvəti-fünunun türk ədəbiyyatına gətirdiyi bəzi yeni formalardan istifadə etsə də, onun yaradıcılığı istər forma, istərsə də məzmun baxımından yenilik və orijinallığı ilə diqqət cəlb edir. O özü yaradıcılıqda Cavid konsepti və istiqaməti formalaşdırmışdır. Bu mənada Cavid əfəndinin yaradıcılığının fərqli problemlər işığında və təhlil üsulları ilə öyrənilməsi hər zaman öz aktuallığını saxlayır. Dahi mütəfəkkir hələ Naxçıvanda olarkən öz dühası ilə fərqlənmiş və yazıçılara, ziyalılara təsir göstərmişdir. Görkəmli dramaturqun şagirdi olan Lətif Hüseynzadə yazırdı: “Cavid əfəndi özünün yaradıcılıq nümunələri və məsləhətləri ilə Naxçıvandakı yazıçı və şairlərə yeni yaradıcılıq istiqaməti təbliğ edirdi” [3, s.130].

## Əsas hissə / *Main part*

Hüseyn Cavidin Naxçıvan mühiti ilə ünsiyyətini iki mərhələyə bölmək olar: a) uşaqlıq və yeniyetməlik yaşları, ilk təhsil illəri; b) Birinci Dünya müharibəsinin sonuna doğru və sonunda kəskinləşən siyasi hadisələr dövrü. Cavid yaradıcılığı bu iki mərhələnin hər birindən dərin izlər daşıyır.

Cavidin sosial-mədəni həyatda tanınması İstanbul Darülfünundan məzun olduqdan sonra Naxçıvanda, Gəncədə, müəllimlik fəaliyyəti və şeir, dram yaradıcılığı, mətbuatda davamlı iştirakı ilə bağlıdır. O, 1918-ci ildə Naxçıvanda ictimai-siyasi hadisələrin kəskinləşdiyi bir vaxtda yadelli qüvvələrə qarşı mübarizədə hadisələrin mərkəzində görünən əsas fiqurlardan biri idi. “Cavidin o zaman Naxçıvanda ədəbi-bədii, pedaqoji və siyasi fəaliyyəti Naxçıvan ictimai-siyasi və mədəni həyatında bir intibah yaratmış, mübarizlik ruhu yaratmışdır” [3, s.132]. Əgər Cavid əfəndi intibah,

mübarizlik ruhu yaratmışdırsa, o bu ruhu hələ İstanbul Universitetindəki təhsil illərindən əvvəl, atası Molla Abdulladan, onun mənəvi-ruhi aləminin formalaşmasında mühüm rolu olan böyük qardaşı Şeyx Məhəmməddən, müəllimi Məhəmməd Tağı Sidqidən, Naxçıvanın xalqa bağlı qəhrəman insanlarından, bir sözlə, Naxçıvan mühitindən əxz etmişdir. Naxçıvan mühitinin yetirməsi olan Hüseyn Cavid kökə bağlılığı, milli mücadilədə əsl Azərbaycan türkünə xas xüsusiyyətləri ilə vətənin, millətin qayğısına qalmışdır.

Məqalənin də adından göründüyü kimi, biz Hüseyn Cavidin yaradıcılığında Naxçıvan mühitinin təsirlərini araşdırmağa çalışacağıq. Ancaq buna keçməzdən əvvəl, bir çox ədəbiyyatlarda Hüseyn Cavidin dünyabaxışının formalaşmasını bir sıra ziyalıların, məsələn: Rza Tefviq Bölükbaşı, Əli bəy Hüseynzadənin təsiri ilə gerçəkləşməsi məsələsinə münasibət bildirməyi lazım bildik. Bizim qənaətimizcə, Rza Tefviqin təsəvvüf, fəlsəfə, siyasət istiqamətində Cavidin yaradıcılığına təsirini mütləqləşdirmək doğru olmazdı. Belə ki, Rza Tevfiq “1907-ci ildə girdiyi İttihat və Tərəqqi Cəmiyyətində üst səviyyədə görəv aldı” [4]. Digər tərəfdən “İttihad və Tərəqqi” Əli bəy Hüseynzadənin üzvü olduğu bir təşkilat idi. Əli bəy Hüseynzadənin Hüseyn Cavid yaradıcılığında təsiri məsələsindən də bəhs etmək doğru deyil. Fikrimizi belə əsaslandırırıq: o dövrdə də, hazırki zamanda olduğu kimi, “İttihad və Tərəqqi”çilərin fəaliyyəti birmənalı qarşılanmamışdır. Bu tarixi məqamlara aydınlıq gətirmək istiqamətində, tarixi şəxsiyyətlərdən Ənvər paşanın fəaliyyəti əhəmiyyətli informasiya mənbəyidir. Ənvər paşanın etirafına nəzər salaq: “Kahya, biz başından bəri yəhudinin amali-siyasinə xidmət etmişik də, xəbərimiz yox” [6]. Artıq göründüyü kimi, bu təşkilatın amalı bəlli idi, əgər Hüseyn Cavid Rza Tevfiq, Əli bəy Hüseynzadə davamçısı olsaydı, onlar kimi bu təşkilatın üzvlərindən biri olardı. Bir haşiyəyə çıxaraq qeyd edək ki, Cavidin “Füyuzat”da yalnız bir əsəri – “Hali-əsəfiştimalımı təsvirdə bir ahi məzlumanə” mənzuməsi çap olunub. Baxmayaraq ki, bir sıra tədqiqatçılar onu Hüseynzadənin ideallarının davamçısı və “Füyuzat”ın fəal müəlliflərindən biri kimi qələmə verirlər. Qeyd etdiyimiz kimi, Cavid əfəndi amalı qeyri-müəyyən olan bu təşkilata üzv olmamış, hadisələrə daha ayıq münasibət bəsləmişdir. Bu isə onun, yuxarıda qeyd etdiyimiz kimi, İstanbula gedənə qədər ciddi bir mühitdə yetişməsinin nəticəsi idi. İstanbul mühitindən bəhrələnməsi də şübhəsizdir. Lakin o, böyük şəxsiyyət kimi gənc yaşlarından özünəxas baxış və mühakimə, yaradıcılıq qabiliyyətlərinə malik idi. Təsadüfi deyil ki, Kazım Qarabəkir paşa Naxçıvanda xalq qarşısında çıxışı zamanı deyir: “... Çox sevimli xocam, müəllimim, türk dünyasının ortaq şairi, möhtərəm Hüseyn Cavid Rasizadə bəy əfəndiləri ilə yaşdaş olmağımla da fəxr edirəm. Əvət, bu bir mutluluq simgəsidir” [3, s.148]. Bu çıxışın ardından Kazım Qarabəkir paşa Hüseyn Cavidi mədh edən bir şeir də söyləyir:

*Nə qədər xoş təsadüf, nə mutluluq,*
*İkimiz də bir zamanda, həp bərabər doğulduq.*
*Şeir, sənət dünyasında ikimiz də şair olduq,*
*Sən ustad bir müəllim, bən də qorxmaz bir əsgər,*
*Bu millətə, bu vətənə qılınc ilə qələm olduq.* [3, s.148]

1918-ci ildə ermənilərin Bakıda törətdiyi mart qırğınları zamanı Hüseyn Cavid erməni daşnaqları tərəfindən tutulmuş, daha sonra onların əsarətindən xilas olmuş, oradan Təbrizə, sonra isə Naxçıvana gəlmişdir. 1918-ci il həm Bakı, həm Naxçıvanda ermənilər qırğınlar törətməkdə davam edir, müsəlman türklərinə qarşı soyqırımı həyata keçirirdilər. Bu cür gərgin keçən tarixi hadisələrin fonunda Hüseyn Cavid “İblis” faciəsini qələmə aldı. Artıq bu zaman Naxçıvanda Araz-Türk Cümhuriyyəti qurulmuşdu. Kazım Qarabəkir paşa Hüseyn Cavid şeirlərinin məftunu idi, “Cavid əfəndinin o zaman yazmaqda olduğu “İblis” əsərinin tamaşasının ilk rejissorluğunu bən yapacağam. Onu Türkiyədə bən nümayiş etdirəcəyəm”, – dedi. Cavid əfəndi də “inşəallah” dedi və öz razılığını bildirdi” [3, s.153]. “İblis” pyesinin yazılma səbəbi kimi I Dünya müharibəsi qeyd olunur, ancaq onu da qeyd etmək lazımdır ki, bu əsər yazıldığı 1918-ci ildə Naxçıvanda

“Andronikin quldur dəstələri Culfa körpüsünü, Culfa-Naxçıvan dəmir yolunu dağıtdırmış, daşnak quldur dəstələri 700 evlik Yaycı kəndinin əhalisini qılıncdan keçirib Araz çayına tökmüş və saysız-hesabsız qırğınları həyata keçirmişdilər” [3, s.132]. Yaycı faciəsi daxil olmaqla, bütün bu müharibə və qırğınların “təqlidini” tapdığı “İblis” pyesi təkcə I dünya müharibəsi yox, eyni zamanda, dramaturqun Bakıda, Naxçıvanda şahidi olduğu tarixi hadisələrin yaradıcılıqdakı proyeksiyasıdır. Naxçıvanda baş verən tarixi hadisələr fonunda “İblis” əsərinin obrazları içərisində də diqqəti çəkən məqamlar var. Lətif Hüseynzadə xatirələrində yazır: “...İran erməniləri Ermənistana yardım etmək üçün şaha müraciət edirlər. Şah başda İran ermənilərinin baş keşişi olmaqla nümayəndə heyətini Naxçıvana göndərmişdi” [3, s.160]. Hüseyn Cavidin “İblis” pyesində yaratdığı erməni papas obrazı da tarixi hadisələrin gedişində Ermənistana kömək etmək missiyasını daşıyırdı. “İblis” əsərindən:

***Elxan:***

*Şu həriflər əcəba kim? Söylə!*

***Növbətçi:***

*Şu papas ermənidir, vaqtilə*
*Ermənistana daşırmış qurşun,*
*Həm də İncil deyə!...* [1, s.90]

Bir faktı da qeyd etmək lazımdır ki, İran şahının icazəsi ilə həmin keşiş barış üçün göndərilmişdir. Ancaq bu “barış” zamanı sərhəd məsələləri həll edildi. “Naxçıvanın zərərinə olan bir barış müqavilənaməsi bağlanmışdı. Belə ki, müqavilənamənin şərtinə görə Naxçıvan və Ermənistan sərhədi Naxçıvanın lap yaxınlığında olan Dəvəli kəndi müəyyən edilmişdi. Bu isə Araz Türk Cümhuriyyətinin himayəsi altında olan Qəmərli, Vedibasar və sair müsəlman türk bölgələrin Ermənistanın işğalı altına düşməsi demək idi” [3, s.160]. “İblis” pyesində dramaturq papasın İncil adı altında göstərdiyi siyasi hiyləgərliyi belə ifşa edir:

***Elxan:***

*Ya!.. Eşq olsun,*
*Nerədən aldın o hissiyyatı,*
*Verdi İncilmi bu təlimatı?* [1, s.90]

Və eyni zamanda ermənilərə xas bir davranış tərzini əsərdə papasın dilindən verir:

*Ah, suçum varsa da, əfv eylə bəni.* [1, s.90]

Həmçinin tarixi hadisələrin gedişi zamanı daşnak erməni havadarları olan ingilis, fransız, amerika ermənipərəst generallarının işğalçılıq planları pyesdə aşağıdakı obrazların timsalında canlandırılıb:

***Elxan:*** *Şu hərif kim əcəba? Həm nə əbus...*
***Növbətçi:*** *Bu, fransız tərəfindən casus...*
***Elxan:*** *Ya bu əmmaməli şeytan kimdir nə diyor?*
***Növbətçi:*** *İngilis dəllalıdır, İranda*
*Nəşri-əfkar ediyormuş...* [1, s.91]

Göründüyü kimi, Naxçıvanın ictimai-siyasi həyatında baş verən tarixi hadisələrin təsviri “İblis” pyesinin yazılmasında təsirsiz qalmamışdır.

Yeri gəlmişkən onu da qeyd edək ki, 1983-cü ildə Hüseyn Cavidin “İblis” əsərini səhnələşdirən Mehdi Məmmədov Ərəbistanı çalxalayan personajın məhz Lourensin qiyafəsində tamaşaçılara təqdim etmişdi. Lourens Birinci Dünya müharibəsində baş leytenant rütbəsi ilə İngilis Hərbi Kəşfiyyat Xidmətində agent olaraq çalışıb. Ərəbləri Osmanlı dövlətinə qarşı üsyan etməyə təhrik edib.

"İblis" pyesində inanc sisteminə gəldikdə Cavidin yaratdığı İblisə ardıcıl olaraq mifoloji – şamanizm – İslamın ortaq obrazı kimi yanaşmaq lazımdır. Naxçıvanda dini inancların keçdiyi xronoloji ardıcıllıqda həmin sistemi görürük. Hüseyn Cavid "Naxçıvanda nə gördüm" məqaləsində yazır: "Rəvayət olunduğuna görə, Naxçıvan əski yarımtanrılardan məşhur "Daqyanos"un mərkəzi-səltənəti imiş. Demək ki, pək də küçük yer sayılamaz. Tarix səhifələrində bir taqım qəraib təsadüf olunur ki, əsrlər keçsə də, kəndi əhəmiyyətini qeyb etməz, nasıl ki, Zərdüşti məzhəbində cari olan bir çoq işlər, şimdi belə təbdili-məzhəb etmiş bəzi müsəlmanlar arasında hökmfərmadır" [2, s.190]. Naxçıvan ərazisində həm mifoloji, həm şamanizm, həm də islami dəyərlərin yaşadılması ardıcıl şəkildə "İblis" pyesində izlənilir.

İblis obrazında dualizm müşahidə olunur: xeyir və şər, işıq (nur) və qaranlıq (zülmət). Bu da Zərdüştlükdən gəlmə elementlərdir. "M.ö. VII əsrdə "Avesta"da adı çəkilən, lakin tədqiqatlarla m.ö. II minilliyə aidliyi sübut olunan Sak türklərinin adı Naxçıvan ərazisində iki nahiyədə və Cənubi Azərbaycanda isə yüzlərlə məntəqə adında qalmışdır" [5, s.29].

Naxçıvanda islami dəyərlərə böyük hörmətlə yanaşılmaqla yanaşı, təriqət nümayəndələrinin, övliyaların qəbirləri də ziyarət olunur. Bunun təsirindən də Hüseyn Cavidin bir sıra əsərləri: "Şeyx Sənan", "Topal Teymur", "Xəyyam", "Peyğəmbər", "İblis" məhz sufi dünyagörüş istiqamətində yazılmışdır və bu əsərlərdə təsəvvüfi motivlərlə, rəmz və obrazlarla qarşılaşırıq. Sufi məzmun daşıyan Dərvişin əhli-hal, həqiqət aləminin nümayəndəsi kimi əsərlərində yer alması Naxçıvanın uzun illər təriqət nümayəndələrinin, dərvişlərin məskəni olması, türbələr, pir və ziyarətgahlar zəngin dini inanc sistemindən xəbər verir. Hüseyn Cavid yaradıcılığındakı təsəvvüf ovqatı digər tərəfdən Şeyx Məhəmmədin, Məhəmməd Tağı Sidqinin təsirilə uşaq yaşlarından yaşadığı ruhi təlqinlərlə də izah oluna bilər. Eyni zamanda Naxçıvanın orta əsrlərdə hürufiliyin geniş yayıldığı bir ərazi olması, sonralar "Əncüməni-şüəra" ədəbi məclisi şairlərində təsəvvüf ənənələrinin açıq-aydın təzahürü bu məkanın təriqətlər baxımından da zəngin mühit kimi dəyərləndirilməsinə əsas verir.

"Qədim türklərin Naxçıvan ərazisində m.ö. VI-I minilliklərdəki dili, inancları və yaratdığı mədəniyyət nümunələri o dövr qonşu dövlətlərin dili inancı və mədəniyyətinə birbaşa təsir etmişdir" [5, s.42]. Naxçıvanın ictimai-siyasi həyatında baş verən hadisələr, hətta qonşu ölkələrə belə təsir edən dini inanc sistemindəki amillər Hüseyn Cavidin yaradıcılığına təsirsiz qalmamışdır.

Bundan başqa Cavid əfəndinin yaradıcılığında yer alan "Peyğəmbər" dramında coğrafi məkanların təsviri zamanı diqqət çəkən təsvirlər var. "... Ətrafda mağaralar, qayalar, sarp enişlər, qorqunc uçurumlar" [1, s.141]. Doğrudur, bu təsvirlər Məkkə yaxınlığında qeyd olunur, eyni zamanda Naxçıvanın coğrafi məkanı, təbiəti ilə də üst-üstə düşür. Hüseyn Cavidin yaradıcılığında dağlıq ərazilərin təsviri kifayət qədərdir. Cavidin böyüyüb boya-başa çatdığı məkanın dağlıq relyefinin, özünəməxsus iqlim qurşağının yaradıcı şəxsiyyətin şüuraltı yaddaşında saldığı izlərin proyeksiyası kimi xarakterizə oluna bilər.

## Nəticə / *Conclusion*

Hüseyn Cavidin yaradıcılığı uzun illər Sovet ideologiyasının təsiri ilə yanlış istiqamətdə tədqiqata cəlb olundu. Əlbəttə, yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvanın erməni quldur dəstələri tərəfindən tez-tez hücumlara məruz qalması Cavidin əsərlərində də, xüsusən həmin hadisələrin qızğın vaxtında yazılan "İblis" pyesində proyeksiya olunub. Sovet dövründən üzü bəri tədqiqatlar bu əsərin yalnız I Dünya müharibəsi mövzusunda yazılması ilə məhdudlaşdırılmış və onun yazıldığı məkanda baş verən faciələrdən diqqəti yayındırmaq istəmişlər. Ancaq bu gün tarixi materiallar əsasında bədii əsərləri yenidən tədqiqata cəlb etdikcə Hüseyn Cavidin əsərlərinin mayasında qlobal hadisələrlə bərabər, Naxçıvanın tarixi, məruz qaldığı faciələri, mədəniyyəti, mühitin, coğrafiyanın qeyri-ixtiyari, ya da bilərəkdən əks olunması özünü göstərir.

**Ədəbiyyat / *References***

1. Hüseyn Cavid. Əsərləri. [5 cilddə] / H.Cavid / Tərtib edən: Turan Cavid. – Bakı: Lider nəşriyyatı, c.3. 2005. – 304 s.
2. Hüseyn Cavid. Əsərləri. [5 cilddə] / H.Cavid / Tərtib edən: Turan Cavid. – Bakı: Lider nəşriyyatı, c.5. 2005. – 304 s.
3. Hüseynzadə, L. Bərabər yürüdük biz bu yollarda. Xatirələr, faktlar, sənədlər... Toplayan və tərtib edən Nazim Əkbərov. – Bakı: Çağ yayınları, 2007. – 244 səh.
4. https://islamansiklopedisi.org.tr/riza-tevfik-bolukbasi Rıza Tevfik Bölükbaşı. Müəllif: Abdullah Uçman.
5. https://www.aqra.az/wp-content/uploads/Kitablar_Latin/Firudin%20Rzayev%20Nax%C3%A7%C4%B1van%20%C6%8Fhalisinin%20kitab.pdf Rzayev Firudin. Naxçıvan əhalisinin etnogenezi tarixindən m.ö. II-I minilliklər. II cild. – Naxçıvan, 2017.
6. https://www.youtube.com/watch?v=yS7xypG-zic Mısıroğlu Kadir. Kadir Mısıroğlunun gözüylə Enver paşa. [Elektron resurs]

## Проекция среды Нахичевана в произведениях Гусейна Джавида

**Айсель Гурбанова**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: ayselqurbanova@rambler.ru

**Резюме.** В данной статье мы изучили проекцию среды Нахичевана в произведениях Гусейна Джавида. До сих пор в научной литературе упоминается, что Гусейн Джавид был либо последователем идеалов Рзы Тевфига Болукбаши, либо Али бека Гусейнзаде, и писал под их влиянием, бросая тень на его личность и творческий потенциал как драматурга, поэта и общественно-политического деятеля. Однако в этой статье мы утверждаем, что Гусейн Джавид не находился под влиянием какой-либо интеллигенции, наоборот, мы постарались показать на примерах, что он начал общаться с ними уже во взрослом возрасте, и насколько глубокий след оставила в его творчестве среда Нахичевана, где он родился и вырос. Мы видим здесь, что пьеса «Иблис», написанная Гусейном Джавидом как драматургом и общественно-политическим деятелем, отражает напряженные исторические события, происходившие в Нахичеване. Хотя анализ этой пьесы констатирует, что содержание произведения посвящено Первой мировой войне, пьеса «Иблис» посвящена армяно-мусульманскому конфликту в Нахичеване и массовым убийствам, совершенным армянскими дашнаками, и в образе Папаса был создан прототип образа армянского священника в истории и через этот образ представили гнусные намерения армян. Тот факт, что творчество Гусейна Джавида служит идеологии тюркизма, есущей в себе азербайджанство, связан и с тем, что Нахичеван является родиной древних тюркских народов. Слой суфизма в его творчестве также протекает из Нахичевана и семейной среды Джавида. При изучении творчества Джавида эфенди необходимо обратить внимание на окружающую среду Нахичевана, систему религиозных верований, географию и историю.
**Ключевые слова:** Гусейн Джавид, Казим Гарабакир Паша, среда Нахичевана, Шейх Магомед, проекция